**“Yeni Azərbaycan”.-**2012.-1 mart.-№39.-S.7.

## Azərbaycan-Pakistan münasibətləri ortaq maraqlara əsaslanır

Bu bir həqiqətdir ki, Azərbaycanın xarici əlaqələrində xüsusi yerə malik olan ölkələrdən biri də Pakistandır. Elə iki ölkə rəsmilərinin mütəmadi qaydada baş tutan görüşlərində səsləndirilən fikirlər, həmçinin, həyata keçirilən bir çox tədbirlər də Azərbaycan-Pakistan əlaqələrinin yüksək səviyyədə olduğunu söyləməyə əsas verir.

Məlum olduğu kimi, bu günlərdə Prezident İlham Əliyev ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Senatının sədr müavini Mir Can Camalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlət başçısı görüşdə Azərbaycan ilə Pakistan arasında dostluq və tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayıb. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı ölkəmizə verdiyi davamlı dəstəyə və Pakistan parlamentinin Xocalı faciəsini soyqırımı kimi tanımasına görə Pakistan İslam Respublikasına minnətdarlığını ifadə edib.

Dövlət başçısı Azərbaycanla Pakistan arasındakı əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən, parlamentlərarası əlaqələr sahəsində daha da möhkəmləndirilməsinin önəmini qeyd edib. Tərəflər arasında iqtisadi sahədə olan əlaqələrə də toxunan Prezident İlham Əliyev Azərbaycan-Pakistan Hökumətlərarası Birgə İqtisadi Komissiyanın fəaliyyətini intensivləşdirməyin zəruriliyini bildirib. Dövlət başçısı Azərbaycan ilə Pakistanın beynəlxalq təşkilatlarda bir-birilərini daim dəstəkləmələrini bir nümunə kimi dəyərləndirib.

Pakistan İslam Respublikası Senatının sədr müavini Mir Can Camali isə ölkəmizə ilk dəfə 1993-cü ildə səfər etdiyini və Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atdığını ehtiramla xatırlayıb. O, ötən dövr ərzində Azərbaycanda çox böyük inkişaf proseslərinin şahidi olduğunu deyib. Mir Can Camali ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəyini bildirib. O, iki ölkə arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən, iqtisadi və parlamentlərarası əlaqələr sahəsində daha da genişləndirilməsinin zəruriliyini qeyd edib.

### AZƏRBAYCANLA PAKİSTAN ARASINDA MÖHKƏM SİYASİ ƏLAQƏLƏR MÖVCUDDUR

Məlumat üçün bildirək ki, Pakistan İslam Respublikası Azərbaycanın müstəqilliyini Türkiyədən sonra ikinci tanıyan ölkədir. Belə ki, Pakistan tərəfindən Azərbaycan Respublikasının müstəqilliyi 1991-ci il dekabrın 12-də tanınıb. Pakistan, həmçinin, Azərbaycanda səfirliyini açan ilk ölkələr sırasındadır. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il iyunun 9-da yaradılıb. 1993-cü il martın 12-də Pakistan İslam Respublikasının Bakıda, 1997-ci il avqustun 24-də isə Azərbaycan Respublikasının İslamabadda səfirlikləri açılıb. Xüsusi olaraq vurğulamaq yerinə düşər ki, 1993-cü ildə Ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlişi Azərbaycan ilə Pakistan arasındakı dostluq əlaqələrinin strateji müttəfiqlik müstəvisində beynəlxalq və regional təşkilatlar (BMT, İKT, İƏT) çərçivəsində uğurla inkişaf etməsinə təkan verib.

Onu da qeyd etmək yerinə düşər ki, Pakistan hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycan tərəfinin haqlı mövqeyini bir- mənalı şəkildə dəstəkləyib və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinin tərəfdarıdır. Yeri gəlmişkən, Pakistan Azərbaycan ərazilərinin işğalına etiraz olaraq, Ermənistanı bir dövlət kimi tanımır, işğalçı ölkə ilə heç bir sahədə əlaqələr yaratmır. Bu ölkənin Ermənistanın Azərbaycana qarşı təcavüzünə münasibətdə israrlı mövqeyinin bariz nümunəsi kimi, həmçinin, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının (TŞ) Pakistanın sədrliyi ilə keçirilən iclasında işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması ilə bağlı 822 saylı Qətnamənin qəbul edilməsini göstərmək olar. Pakistanın eyni zamanda, 2004-cü ilin oktyabr ayında ölkəmizin "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində vəziyyətə dair" qaldırdığı məsələnin BMT Baş Assambleyasının 59-cu sessiyasının gündəliyinə salınmasının lehinə səs verməsi bu məsələnin ədalətli həlli istiqamətində beynəlxalq birliyin dəstəyinə ümidvar olan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edib. 2008-ci il martın 14-də isə BMT-nin Baş Assambleyasında keçirilmiş səsvermədə Pakistan "Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyət" haqqında qətnamə layihəsinin lehinə səs verib.

Hazırda iki ölkə arasında bütün sahələri əhatə edən əlaqələr mövcuddur. Bu əlaqələrə isə xalqlarımız arasındakı qardaşlıq münasibətləri ilə yanaşı, zaman-zaman iki ölkə rəsmilərinin həyata keçirdikləri qarşılıqlı

səfərlər də təkan verib. Belə ki, 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Azərbaycanda rəsmi səfərdə olub. Bu səfər iki dövlət başçısı arasında mövcud olan xüsusi dostluq münasibətləri ruhunda yüksək səviyyədə, qarşılıqlı anlaşma şəraitində keçib və dövlətlərarası münasibətlərin ən yüksək səviyyədə inkişafında xüsusi əhəmiyyət daşıyıb. Səfər çərçivəsində iki ölkə arasında bir sıra sənədlər, o cümlədən, Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının yaradılması haqqında Protokol, həmçinin, "Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Əməkdaşlıq haqqında Müqavilə" imzalanıb. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, ümumiyyətlə iki ölkənin başçıları bir neçə dəfə qarşılıqlı səfərlər ediblər. Məsələn, 1996-cı ilin aprelində Pakistan İslam Respublikası prezidentinin dəvəti ilə Ulu öndər Heydər Əliyevin Pakistana, 2004-cü ildə Pa- kistan İslam Respublikasının o zamankı prezidenti Pərviz Müşərrəfin Azərbaycan Respublikasına, 2005-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana səfərləri bunun əyani göstəricisidir. Sözügedən səfərlər zamanı əməkdaşlığın müxtəlif sahələri ətrafında danışıqlar və fikir mübadilələri aparılıb, müvafiq istiqamətlər üzrə ikitərəfli sənədlər imzalanıb.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev də Pakistanla münasibətlərin inkişaf etdirilməsinə diqqətlə yanaşır. Bunu dövlət başçısının istər beynəlxalq tədbirlər zamanı Pakistan rəsmiləri ilə keçirilən görüşləri, istərsə də qarşılıqlı səfərlər zamanı müzakirə olunan məsələlər də təsdiqləyir. Bu sırada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ilin aprelində Pakistana səfəri xüsusi olaraq qeyd edilməlidir. Məlumat üçün bildirək ki, dövlətlərarası münasibətlərin yüksək səviyyədə inkişafında yeni mərhələnin başlanğıcı sayılan bu səfər zamanı dövlət başçılarının görüşündə Azərbaycan ilə Pakistan arasındakı münasibətlərin inkişafından razılıq edilib. Pakistan tərəfi Azərbaycanla birgə imzalanmış ikitərəfli sənədlərin bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, Pakistan və Azərbaycan əsas problemlərə eyni mövqedən yanaşır. Məhz Kəşmir problemi barədə Azərbaycanın açıq mövqeyi və Ermənistanın Azərbaycana təcavüzünün Pakistan tərəfindən daim pislən- məsi xüsusi olaraq vurğulanıb. Bildirilib ki, rəsmi İslamabad Ermənistanın Azərbaycana hərbi təcavüzünü qətiyyətlə pisləyir və öz mövqeyinə hər zaman sadiq qalacağını bəyan edir. Digər tərəfdən, Pakistan Azərbaycanın ərazi bütövlüyünün təmin olunması tələbini hər zaman dəstəkləyəcəyini vəd edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də öz növbəsində ölkələr arasındakı münasibətlərin daimi xarakter daşıdığını söyləyib. Dövlət başçısı xüsusi olaraq vurğulayıb ki, Ermənistanın Azərbaycana təcavüzü məsələsi BMT-nin Təhlükəsizlik Şurasında müzakirə edilərkən Pakistanın birmənalı şəkildə ədalətli mövqe tutaraq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Ermənistanın hərbi təcavüzünün pislənilməsi barədə verdiyi bəyanatlar və Azərbaycanın haqq işini müdafiə etməsi ölkəmizdə yüksək qiymətləndirilir. Ölkə başçısı onu da bildirib ki, Azərbaycan tərəfi Kəşmir problemi ilə bağlı beynəlxalq müzakirələrdə həmişə Pakistanın mövqeyini müdafiə edib və bundan sonra da edəcək.

Yeri gəlmişkən, Azərbaycanla Pakistan bu gün də beynəlxalq aləmdə bir-birinə yaxından dəstək verirlər. Pakistan Senatının 2012-ci il fevralın 1-də Xocalı soyqırımı haqqında qanun layihəsi qəbul etməsi və qətliamı rəsmən genosid kimi tanıması rəsmi İslamabadın Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini bir daha təsdiq etdi.

## İKİ ÖLKƏ ARASINDA ƏMƏKDAŞLIQ ÇOXŞAXƏLİ XARAKTER DAŞIYIR

Yuxarıda da vurğuladığımız kimi, Azərbaycanla Pakistan arasında müxtəlif sahələrdə əməkdaşlıq mövcuddur. Məsələn, 2002-ci ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Pakistan İslam Respublikasının Müdafiə Nazirliyi arasında "Müdafiə və Hərbi sahələrdə ikitərəfli Əməkdaşlıq haqqında" protokol və Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında "Müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında" saziş imzalanıb. Bu protokol və sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi, həmçinin, iki ölkə arasında bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından Pakistan İslam Respublikasının Birləşmiş Qərargahlar Komitəsinin rəisi M.Ə.Xanın 2004-cü ilin avqust ayında Azərbaycana səfəri mühüm əhəmiyyət kəsb edib.

2008-ci ildə isə Pakistan Senatının Xarici əlaqələr üzrə daimi komitəsinin nümayəndə heyəti Azərbaycana səfər edib. 2008-ci ilin sentyabrında Bakıda keçirilmiş İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Kənd Təsərrüfatı Nazirlərinin 4-cü toplantısında Pakistanın nümayəndə heyəti də iştirak edib. 2008-ci ilin oktyabrında isə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin nümayəndə heyəti Pakistana səfər edib. Səfər zamanı Azərbaycan-Pakistan ikitərəfli İşçi Qrupu Forumunun da ilk iclası keçirilib. 2008-ci ilin noyabrında isə Azərbaycanın müdafiə sənayesi naziri Yavər Camalovun başçılıq etdiyi nümayəndə heyəti Pakistanın Kəraçi şəhərində təşkil olunmuş 5-ci Beynəlxalq Müdafiə sərgisi və seminarında (İDEAS-2008) iştirak edib. Pakistanın

Müdafiə Məhsulları İxracının Təşviqi Təşkilatı, Pakistan Ticarət İnkişafı Agentliyi və "E-Commerce Gateway Pakistan" təşkilatının birgə keçirdiyi sərgi- də 60 ölkədən 256 şirkət iştirak edib. Səfər çərçivəsində iki ölkənin hərbi-sənaye kompleksləri arasında əməkdaşlıq sahələrini müəyyən etmək məqsədilə ekspert qrupu yaradılıb. 2009-cu ilin may ayında Pa- kistan Müdafiə Sənayesi naziri Abdul Qəyyum Xan Catoyun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər edib. Səfər zamanı Prezident İlham Əliyev nazir A.Q.X.Catoyu qəbul edib. 2009-cu ilin avqustunda Pakistan Hərbi Dəniz Qüvvələri Komandanı admiral Noman Bəşir, həmin ilin oktyabrında isə Pakistan Silahlı Qüvvələrinin Qərargah rəisləri komitəsinin sədri general Tariq Məcidin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilən general T. Məcid ölkələrimiz arasında müsbət əlaqələrin inkişafında maraqlı olduqlarını bildirib. 2010-cu ilin martında Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin nümayəndə heyəti Pakistan İslam Respublikasında səfərdə olub. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Elektron Optik Cihazlar zavodu, Pakistan silah-sursat kompleksi, Taksila Ağır Sənaye zavodu, Kamra Aviasiya Kompleksi, AERO şirkəti və Milli Radio Teleqraf Korporasiyasının fəaliyyəti və məhsulları ilə tanış olublar. 2010-cu ilin aprelində ölkəmizdə səfərdə olan Pakistanın müdafiə katibi Səyid Əthar Əlinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilib. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev əməkdaşlığımızın və tərəfdaşlıq əlaqələrimizin səviyyəsinin razılıq doğurduğunu bildirib. Ölkəsinin Azərbaycan ilə əlaqələrinin uğurla inkişaf etdiyini bildirən Pakistanın müdafiə katibi Səyid Əthar Əli ölkələrimizin beynəlxalq forumlarda bir-birinin mövqelərini daim dəstəkləmələrinin önəmini qeyd edib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan üçün ən ümdə məsələ olduğunu vurğulayan qonaq məhz bununla bağlı Pakistanın Ermənistanı tanımadığını bildirib.

İki ölkə arasında iqtisadi əməkdaşlıq da yüksək səviyyədə inkişaf etməkdədir. Belə ki, iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə yaradılmış Hökumətlərarası Birgə İqtisadi Komissiyanın indiyədək beş iclası keçirilib. Birgə komissiyanın Azərbaycan tərəfindən həmsədri baş nazirin birinci müavini Yaqub Eyyubov, Pakistan tərəfindən isə yanacaq və təbii ehtiyatlar naziri Nəvid Qəmərdir.

Ötən ilin dekabrında Bakıda sözügedən komissiyanın beşinci iclası keçirilib. Tədbirdə çıxış edən iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov artıq beşinci iclası keçirilən komissiyasının ikitərəfli əməkdaşlığının, xüsusilə də iqtisadi əlaqələrin möhkəmləndirilməsində əhəmiyyətini qeyd edib, komissiyanın səmərəli fəaliyyətinin iki ölkə arasında əlaqələrin inkişafına xidmət etdiyini vurğulayıb.

Birgə komissiyanın iclasında iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün iş adamlarının qarşılıqlı işgüzar səfərlərinin, biznes forumların və sərgilərin təşkilinin, Azərbaycan şirkətlərinin Pakistanın infrastruktur layihələrinin həyata keçirilməsində və inşaat sektorunda iştirak imkanlarının öyrənilməsinin məqsədəuyğunluğu vurğulanıb. Sonda beşinci iclasın yekunlarına dair Protokol imzalanıb. Sənəddə sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, ticarət, təhsil, ədliyyə, mədəniyyət və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında mədəni və humanitar sahədə əlaqələr də yüksək səviyyədə inkişaf edib. Pakistan hökuməti tərəfindən Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış vəziyyətlə əlaqədar dəfələrlə qaçqın və köçkünlərimizə humanitar yardımlar göstərilib. İndiyədək Pakistan islam Respublikası Azərbaycan qaçqınlarına və məcburi köçkünlərə kömək məqsədilə geyim əşyaları və dərmandan ibarət 25 tondan artıq humanitar yardım göstərib.

2005-ci ildə Pakistan İslam Respublikasında baş vermiş dəhşətli zəlzələ nəticəsində zərər çəkmiş insanlara yardım etmək məqsədilə Azərbaycan hökuməti tərəfindən Pakistan İslam Respublikasına əlavə olaraq 1 milyon ABŞ dolları yardım edilib. Daha öncə isə 500 min ABŞ dolları və zəruri ləvazimatlarla dolu təyyarə fəlakət zonasına göndərilmişdi. Eyni zamanda, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2007-ci ilin əvvəllərində Pakistanda Kəşmirin zəlzələdən zərər çəkmiş Müzəffərabad şəhərinin Rara qəsəbəsində qızlar üçün hökumət orta məktəbi tikilib və 2008-ci il fevralın 9-da məktəb şagirdlərin ixtiyarına verilib. 2008-ci ilin oktyabrında Pakistanın Bəlucistan əyalətində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması məqsədilə Azərbaycan tərəfindən Pakistana 20 min ABŞ dolları məbləğində maliyyə yardımı ayrılıb. Pakistan ordusu tərəfindən Şimal Qərb Sərhəd əyalətində Taliban yaraqlılarına qarşı 2009-cu ilin may ayında başlanılmış hərbi əməliyyatlar nəticəsində ölkədə yaranmış vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən Pakistana 100 min ABŞ dolları məbləğində maliyyə yardımı ayrılıb. Bununla yanaşı, 2010-cu ilin yayında Pakistan İslam Respublikasında baş vermiş sel fəlakətinin nəticələrinin aradan qaldırılması, daşqından əziyyət çəkmiş insanlara yardım məqsədilə Azərbaycan Pakistana 2 milyon ABŞ dolları həcmində maddi yardım edib, bundan əlavə içərisində ümumi dəyəri 571 milyon manat olan

ərzaq, dərman, geyim və digər zəruri məişət ləvazimatlarının olduğu iki təyyarə göndərib.

Onu da qeyd etmək lazımdır ki, iki ölkə arasında təhsil və kadrların hazırlanması üzrə əməkdaşlıq əlaqələri də mövcuddur. Pakistanda azərbaycanlı tələbələrin təhsil alması ilə yanaşı, eyni zamanda, müxtəlif sahələr üzrə azərbaycanlı mütəxəssislərin təkmilləşdirilməsi üçün iki ölkə arasında müvafiq əməkdaşlıq proqramları həyata keçirilməkdədir. Eyni zamanda, Pakistan Xarici İşlər Nazirliyində təşkil edilən müvafiq kurslara azərbaycanlı diplomatlar dəvət olunurlar.

Beləliklə, göründüyü kimi, Azərbaycanla Pakistan arasında qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlığa söykənən əlaqələr ən müxtəlif sahələr üzrə uğurla inkişaf edir. Mövcud imkanlar əməkdaşlığın gələcəkdə daha da genişləndirilməsinə şərait yaradır.

**Hülya MƏMMƏDLİ**